# Müzəffər Ali Baş Komandan Qarabağda

**Faşizmi bayraq etmiş bədniyyət qonşumuzun işğalçı ordusuna birmənalı şəkildə qalib gəlməyimizin və bununla da otuz ilə yaxın həsrətində olduğumuz ərazi bütövlüyümüzü bərpa etməyimizin çoxsaylı səbəbləri var. Həmin səbəbləri politoloq və siyasətçilərin hərəsi bir şəkildə şərh edir. Ali Baş Komandanın qətiyyətini, dövlətin iqtisadi qüdrətini, ordunun maddi-texniki bazasının müasirliyini, əsgər və zabitlərin rəşadətini, qardaş Türkiyənin dəstəyini qabardanların hamısı haqlıdırlar. Ancaq mən daha bir məqamı xüsusilə yada salmaq istəyirəm.**

***Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik… Bu sözləri demişəm və buna əməl etmişəm.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



"44 günlük müharibə"nin xronologiyasında belə bir cümlə də var: "Oktyabrın 22-də səhər saat 09.00 radələrində Ermənistan ərazisindən Qəbələ və Kürdəmir istiqamətində əməliyyat-taktiki raket komplekslərindən ballistik raketlər atılıb".

Qəbələ mənim doğulub-böyüdüyüm rayondur. Qardaşım İntizamın nəvələri raketin düşdüyü kənddə yaşayırlar. Düşmənin həmin hərbi cinayətinin törətdiyi həyəcan və təşvişdən qorxuya düşən nəvəsi qardaşımdan soruşur: "Baba, bura niyə güllə (raket-red.) atırlar, bura da Qarabağdır?" Qardaşım cavab verir: "Bu gün Azərbaycanın hər yeri Qarabağdır."

Fikrimcə, bu, ömrü boyu sürücülüklə çörək qazanmış sadə bir kənd adamının ölkədəki ictimai-siyasi vəziyyətə vətəndaş münasibətidir. Bu, Prezident İlham Əliyevin ölkədə yaratdığı milli həmrəyliyin təntənəsidir. Bu, ölkəmizin yeganə problemi olan Dağlıq Qarabağ münaqişəsinin ümumxalq məsələsinə çevrilməsi istiqamətində atılmış addımların nəticəsidir. Nəhayət, bu, ulu öndər Heydər Əliyevin "biz bütün məsələləri xalqla bir yerdə, ölkə vətəndaşlarının iştirakı ilə həll etməliyik və edəcəyik" tezisinin zəfər çalmasıdır.

Qələbə ərəfəsində – sentyabrın 27-dən sonra bütün azərbaycanlılar özlərini Qarabağda hiss edirdilər. Ölkənin hər qarışının Qarabağa çevrilməsinin ən ali nəticəsini isə "Ərazilərimizin 20 faizini 30 il işğalda saxlayan faşist Ermənistanı üzərində şanlı Qələbə" adlandırırıq. Çünki dövlət başçımızın dediyi kimi, ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları torpaqlarımızdan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz.

Bu məqamda xatırladaq ki, Heydər Əliyev siyasi kursu və Prezident İlham Əliyevin yorulmadan, ardıcıllıqla, məqsədyönlü siyasi-diplomatik fəaliyyəti təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də möhtəşəm əks-sədasını verməkdədir. Yəni bu gün Azərbaycanın haqq işini ən yüksək səviyyədə dəstəkləyən ölkələr, bizim nailiyyətlərimizə lazımi qiymət verən siyasətçilər istənilən qədərdir.

Kütləvi informasiya vasitələri yazırlar ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Rossiya 24" telekanalına müsahibəsində müasir Azərbaycan həqiqətlərini məhz obyektiv şəkildə dilə gətirib. "Heç kim, hətta Ermənistan belə Dağlıq Qarabağın müstəqilliyini tanımayıb" – deyən Vladimir Putin əlavə edib: "Beynəlxalq hüquqa görə, Qarabağ həmişə Azərbaycanın ayrılmaz hissəsi olub, KTMT müdaxilə edə bilməzdi, çünki heç kim Ermənistana hücum etməyib".

Rusiya Prezidenti ermənilərə xatırladıb ki, bu məsələni həll etmək üçün hələ 2013-cü ildə hazırlanmış təkliflər qəbul olunsaydı, Qarabağdakı müharibənin qarşısını almaq olardı. Ancaq ermənilərə nəinki 2013-cü ildə, ondan əvvəllər də dəfələrlə xilas olmaq şansı verilmişdi. Hətta son döyüşlərin getdiyi günlərdə də Azərbaycan Prezidenti xarici mətbuata verdiyi müsahibələr vasitəsilə Ermənistan rəhbərliyinə deyirdi ki, işğal olunmuş torpaqlarımızdan çıxsanız, biz dərhal hərbi əməliyyatları dayandırarıq. Dərk eləmədilər, anlamadılar. Yekəxanalıq, özündənrazılıq və ən əsası, erməni xəstəliyi onları məhv etdi.

Nəticədə isə rəzilcəsinə, rüsvayçılıqla, alçaldılmaqla məğlub oldular. Bu məqamı Azərbaycan Prezidenti İlham Əliyev xalqa noyabrın 10-da ünvanladığı tarixi müraciətində daha aydın şəkildə ifadə etmişdir: "Onların, demək olar ki, bütün texnikasını məhv etmişik, darmadağın etmişik. Bu 30 il ərzində qurulmuş istehkamları keçmişik, əsgərlərimiz aslan kimi keçiblər, əziblər düşməni keçiblər, əcəb də ediblər, öz torpağında. Biz beynəlxalq hüquqa əməl edirik, biz beynəlxalq hüquqa hörmət göstəririk. Biz mülki vətəndaşlardan intiqam almamışıq, heç vaxt almayacağıq və məhz buna görə mülki vətəndaşlar arasında düşmən tərəfdə itkilər çox azdır. Onlar nə etdilər? Onlar döyüş meydanında duruş gətirə bilmədilər, qaçdılar, ondan sonra ballistik raketlərlə mülki vətəndaşlara atəş açdılar. Bu, hərbi cinayətdir. Onlar bu hərbi cinayətə görə cavab verəcəklər. Gəncə şəhərini Ermənistandan ballistik raketlərlə vurmaq alçaqlıqdır, alçaq hərəkətdir, cinayətdir. Bərdəni kasetli bombalarla atəşə tutmaq hərbi cinayətdir".

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, ermənilərin həyasızcasına bizi müharibəyə təhrik etməsi, "daha çox ərazilər ələ keçirmək üçün yeni planlar cızması" onlara təkcə işğal etdikləri ərazilərimizin əldən çıxması ilə deyil, həm də digər bir böyük itkilərlə başa gəldi. Belə ki, müharibənin başa çatması ilə bağlı imzalanan üçtərəfli bəyanatın müddəalarına əsasən, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi də reallaşdırılacaq.

Dövlət başçımız xatırlatdı ki, bu sənəd həm bütün kommunikasiyaların, yolların açılmasını, həm də yeni nəqliyyat -- kommunikasiya infrastrukturunun yaradılmasını nəzərdə tutur: "Beləliklə Naxçıvan Muxtar Respublikası Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, – çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, – faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi".

… İslam dünyasının ən görkəmli simalarından olan Həzrət Əli əleyhissəlam demişdir ki, biz heç zaman, heç kəsin ölümünə və ya bədbəxtliyinə sevinməmişik və sevinmərik: "Biz həmişə haqqın, ədalətin bərqərar edilməsinə sevinmişik".

Bu ifadəni yada salmağımız təsadüfi deyil. Demək istəyirəm ki, ermənilər 1988-ci ildə öz dədə-baba torpaqlarında yaşayan yüz minlərlə soydaşımızı Ermənistan ərazisindən qarlı-şaxtalı qış günlərində ayaqyalın, başıaçıq, var-dövlətini, əmlakını əlindən alaraq qovurdular. Xalqımız üçün ağır olan həmin dəhşətli günlərdə Ulu Yaradan Ermənistana Spitak zəlzələsini "göndərdi" və nə qədər qaniçən erməni o təbii fəlakətin qurbanı oldu. Allah haqqı bərpa etmişdi. Ağıllanmadılar.

2020-ci ilin yayında müdafiə naziri səviyyəsində elan etdilər ki, biz daha çox ərazilər əldə etmək üçün yeni müharibəyə hazırıq. Onda da Allah onların üstünə Azərbaycan Ordusunu göndərdi və zəlzələdəkindən artıq zəlil oldular.

Ermənistan dövlətini diz çökdürüb, Paşinyanın ordusunu darmadağın edən kim idi? 1988-93-cü illərdə öz ata-baba yurdlarından didərgin salınmış azərbaycanlıların övladları. Bu gənclər "yenilməz Ermənistan ordusu"na qan uddurdular, Nikol Paşinyanı ermənilərin silinməz ləkəsi kimi tarixə yazdılar. İllər boyu Ali Baş Komandanın əmrini gözləyən bu gənclik sübut etdi ki, Qarabağ Azərbaycandır!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***